# AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN MUSİQİ ELMİ SAHƏSİNDƏ GÜLNAZ ABDULLAZADƏNİN ROLU

**İlham Nəzərov**
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının baş müəllimi və doktorantı,
Azərbaycan Respublikasının Əməkdar artisti
**E-mail:** ilhamnazarov@yahoo.com



Azərbaycan-Türkiyə mədəni əlaqələrinin uzun tarixi keçmişi vardır. Din, dil, incəsənət, adət-ənənə, dünyagörüşü və s. kimi mənəvi dəyərləri eyni olan iki xalq arasında mədəni əlaqələr XX əsrin sonlarından başlayaraq yeni mərhələyə qədəm qoyub. Belə ki, beynəlxalq səviyyədə də birbaşa fəaliyyət münasibətləri qurulmağa başlanmışdır. Bu münasibətlərin formalaşmasında ümummilli lider Heydər Əliyevin böyük rolu olub. Ulu öndərin "Bir millət, iki dövlət" devizi iki xalq arasında hər bir sahədə yüksək səviyyəli münasibətlərin simvoluna çevrildi.

Həmçinin əməkdaşlığın inkişafında ayrı-ayrı musiqi xadimlərinin də rolunu vurğulamaq istərdim. Burada görkəmli bəstəkarımız Ü.Hacıbəylinin "Çırpınırdın Qara dəniz" mahnısı, dahi dirijorumuz Niyazinin Türkiyə ilə münasibətləri, onun 1977-ci ildə Ankarada Adnan Sayqunun "Koroğlu" operasına, "Yunis İmre" oratoriyasına ilk dəfə olaraq dirijorluq etməsi [12], eyni zamanda Nazim Hikmət və Arif Məlikov tandemindən yaranan "Məhəbbət əfsanəsi" baleti və romanslar, eləcə də Vasif Adıgözəlovun Çanaqqala müharibəsinin qəhrəmanlarının xatirəsinə həsr olunan "Çanaqqala" oratoriyası qeyd edilə bilər. XX əsrin ortalarında həmçinin Əhməd Adnan Sayqun, Cəmal Erkin, Gürer Aykal və digər türkiyəli məşhur musiqiçilərin Azərbaycana səfərləri, Dövlət Filarmoniyasında konsertləri münasibətlərin yüksələn xətt üzrə davamı ilə nəticələndi.

Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafı və daha da şaxələnməsində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi işlər üzrə prorektoru, musiqişünas, bəstəkar, fəlsəfə üzrə elmlər doktoru, Əməkdar İncəsənət Xadimi, professor Gülnaz Abdullazadənin də misilsiz xidmətləri vardır. Gülnaz xanım Azərbaycan və Türkiyə arasında musiqi bağlılıqlarının yeni mərhələsini formalaşdıran şəxsiyyətdir. Əgər əvvəllər musiqi sahəsində əlaqələr əsasən ifaçılıq, bəstəkarlıq yaradıcılığı üzərində qurulmuşdursa, tədqiqatçı alimin fəaliyyəti sayəsində daha da genişləndirilmiş və yüksək səviyyəyə qaldırılmışdır.

Onun yaradıcılığının mühüm bir hissəsini Türkiyə Cümhuriyyəti ilə elmi əməkdaşlıq təşkil edir. Fəaliyyətində Azərbaycan-Türkiyə mədəni əlaqələrindən danışarkən onları iki aspektdə qiymətləndirmək mümkündür:

1. Musiqi xadiminin yaradıcılığında Türkiyədə keçirilən konfrans və simpoziumların əhəmiyyəti;
2. Türkiyəli gənc tədqiqatçıların bir alim kimi yetişməsində G.Abdullazadənin rolu.

Vurğulanan hər bir aspekt böyük alimin yaradıcılığı ilə bilavasitə sıx bağlıdır. Belə ki, həmin məqamlar onun yaradıcılıq yolunun müxtəlif tərəflərini özündə əks etdirir və mühüm əhəmiyyətə malikdir. Eyni zamanda şəxsiyyətinin, fəaliyyət dairəsinin hərtərəfliliyindən xəbər verir. Musiqiçinin iştirak etdiyi konfransların, istərsə də elmi rəhbəri olduğu bütün tədqiqat işlərinin mövzu dairəsi olduqca geniş və müxtəlifdir. Elə bu səbəbdən Azərbaycan və Türkiyə mədəni münasibətlərinin inkişafında Gülnaz xanımın rolunu araşdırmazdan öncə yaradıcılığının ümumi cizgilərini, elmi əsərlərinin mövzu dairəsini diqqətinizə çatdırmaq istərdim.

G.Abdullazadə müasir dövrdə Azərbaycan musiqi elminin inkişafında, onun sərhədlərinin genişləndirilməsində misilsiz xidmətlər göstərmişdir. Azərbaycan musiqi mədəniyyəti qarşısında ən önəmli xidmətlərindən biri də musiqi elm ictimaiyyətini bir fikir, ideya ətrafında birləşdirməyi və dünya musiqi elminə inteqrasiya etməyi bacarmasıdır. Bu isə ilk növbədə, Ü.Hacıbəyli ənənələrinə sadiqlik və musiqi mədəniyyətimiz qədər dərin köklərə malik musiqi elmimizin inkişafına dəyərli töhfələr vermək deməkdir. Görkəmli musiqi xadimi artıq uzun illərdir ki, tədqiqatçıların yaradıcılığında, onların düzgün istiqamətləndirilməsində məhsuldar əmək sərf edir. O, həmçinin Azərbaycan folklor musiqisinin toplanılması, qorunub saxlanılması və tədqiqində də böyük xidmətlər göstərir. Belə ki, tədqiqatçının şəxsi təşəbbüsü nəticəsində 1992-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrinə əsasən, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində "Azərbaycan şifahi ənənəli professional musiqisinin öyrənilməsi və müasir istiqamətləri",



“Azərbaycan musiqi alətlərinin bərpası” adlı iki elmi-tədqiqat və elmi-praktiki laboratoriyalar fəaliyyət göstərməyə başlamışdır. Həmin laboratoriyalarda xalq musiqimizin öyrənilməsi yolunda mühüm addımlar atılır. Burada çalışan elmi işçilər G.Abdullazadənin rəhbərliyi altında tədqiqatlar aparır və onların əldə etdiyi nəticələr musiqi elmi ictimaiyyətinin marağına səbəb olur. Eyni zamanda laboratoriyada qədim xalq çalğı alətlərinin xüsusiyyətlərinin öyrənilməsi və onların bərpa olunmasında da mühüm işlər həyata keçirilir. Həmçinin 2011-ci ildə onun təşkilatçılığı ilə Bakı Musiqi Akademiyasında ilk dəfə olaraq müasir tələblərə cavab verən akustik laboratoriya yaradılmışdır. Bakı Musiqi Akademiyasının elmi işçiləri, doktorantları burada müxtəlif tədqiqat işləri aparırlar.

Qeyd etmək lazımdır ki, G.Abdullazadə ilk növbədə bəstəkardır. O, ilk musiqi təhsilini Bülbül adına Orta İxtisas Musiqi Məktəbində almış və 1971-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını görkəmli bəstəkar C.Hacıyevin sinfində bitirmişdir. Gülnaz xanımın diplom işi isə üçhissəli simfoniya olmuşdur. Konservatoriyanı bitirdikdən sonra o, Azərbaycan Bəstəkarlar İttifaqına üzv seçilib. Elmi fəaliyyətə isə 1970-ci illərdən başlamışdır. [7, s.4]. Belə ki, gənc alim 1976-1979-cu illərdə Sovet İttifaqının ən nüfuzlu təhsil ocağı sayılan M.Lomonosov adına Moskva Dövlət Universiteti Fəlsəfə fakültəsindəki Estetika kafedrasının aspirantı kimi, “Hegelin estetikasında musiqi sənəti problemləri” adlı dissertasiya mövzusu ilə ilk alimlik dərəcəsini alıb.

Gülnaz xanımın elmi yaradıcılığına xas xarakterik xüsusiyyət, ortaya qoyduğu bütün konsepsiyalarda fəlsəfi mahiyyətin açılmasına geniş yer verməsidir. Belə ki, müəllifi olduğu fundamental tədqiqat işləri birbaşa fəlsəfə elmi ilə bağlıdır. Burada Azərbaycan musiqi elmində ilk dəfə fəlsəfə və musiqinin bir-birinə olan qarşılıqlı təsiri hərtərəfli şəkildə tədqiq edilir. Onlardan “Azərbaycan muğamlarının fəlsəfi mahiyyəti” [8], “Elm, insan və cəmiyyət” [9], “Qədim dövr və orta əsrlərin musiqi mədəniyyətinin tarixi-fəlsəfi təhlili” [2], “Qədim və orta əsrlərin musiqi mədəniyyəti” [3], “Musiqi incəsənətinin fəlsəfi mahiyyəti” [10] və onlarla digər əsərlərini qeyd etmək mümkündür. Bu baxımdan həmin monoqrafiyalar Azərbaycan musiqi elmində böyük əhəmiyyətə malikdir. G.Abdullazadədən sonra Mina Hacıyeva [6], Könül Bünyadzadə [5] və digər tədqiqatçılar da muğam fəlsəfəsi ilə bağlı əsərlər ərsəyə gətirmişlər.

Böyük alimin elmi əsərlərində fəlsəfi mahiyyət ilə yanaşı, Şərq-Qərb dialoqu mühüm əhəmiyyət daşıyır. O, məqalələrində Azərbaycan musiqisinin müxtəlif problemlərinə toxunaraq Şərq-Qərb musiqi mədəniyyəti konsepsiyasında öyrənir. Həmin əsərlərdən “Avropa not sistemli professional musiqinin Şərq şifahi ənənəli professional musiqisi ilə müqayisəsi və onların inteqrasiya yolları” [1, s.4-14], “Üzeyir bəydən bizə miras - bizdən Üzeyir bəyə miras” [4, s.18-20] və digərlərini göstərmək mümkündür. “Avropa not sistemli professional musiqinin Şərq şifahi ənənəli professional musiqisi ilə müqayisəsi və onların inteqrasiya yolları” adlı məqaləsində Qərb və Şərq musiqisinin oxşar və fərqli xüsusiyyətlərinə nəzər salınır, onların qarşılıqlı əlaqəsi və bənzər xüsusiyyətləri müəyyən edilir.

Qeyd edildiyi kimi, G.Abdullazadə yaradıcılığına xas xüsusiyyətlər bütünlüyü ilə alimin Türkiyə Respublikasındakı çıxışlarında da öz əksini tapmışdır; onun qardaş ölkədəki məruzələrinə nəzər yetirən zaman bu bir daha təsdiqlənir.

Türkiyə və Azərbaycan mədəni əlaqələrinin daha da genişlənməsində musiqi sahəsində təşkil olunan elmi konfranslar böyük rol oynayır. Bu, xüsusilə Bakı Musiqi Akademiyası və Türkiyənin müxtəlif universitetləri arasında yaradıcılıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edir. Rəhbərliyi altında həyata keçirilən konfranslarda yerli və bir çox ölkələrdən gələn musiqişünas alimlərlə fikir mübadiləsi aparılır. Eyni zamanda yeni təcrübələrin musiqi elmimizə gətirilməsində, qarşılıqlı şəkildə Azərbaycan musiqi nəzəriyyəsinin beynəlxalq səviyyədə təbliğ olunmasında tədqiqatçının mühüm xidmətləri vardır. Həmçinin qeyd etmək istərdim ki, qarşılıqlı əməkdaşlığın nəticəsi kimi, Gülnaz xanım ilk dəfə olaraq Ege Universitetinin əməkdaşları ilə Şamaxı, Qazax, Gəncə, Şəki və digər bölgələrə ekspedisiyalara getmişdir.

Görkəmli alim yaradıcılığı dövründə dünyanın müxtəlif guşələrində - İspaniya, Yunanıstan, Rusiya, Qazaxıstan və digər ölkələrdə keçirilən çoxsaylı müxtəlif tematikalı beynəlxalq konfranslara qatılıb. Həmin tribunalardan çıxışlarının mühüm hissəsini də Türkiyədə keçirilən konfranslarda məruzələri təşkil edir. Onlardan “IV Uluslararası Türk Kültürü Kongresi” (1997), “Felsefe Kongresi” (1998), “Uluslararası Avrupada ve Türk Cumhuriyyetlerinde Müzik Kültürü ve Egitimi Kongresi” (2002), “I Uluslararası Oğuzlardan Osmanlıya Diyarbakır Sempozyumu” (2004), “Halk Kültürlerini Koruma-Yaşatma ve Geleceğe Aktarma Uluslarası Sempozyumu” (2005), “Uluslararası Malatya Türk Halk Müziği Sempozyumu” (2011), “IX Uluslararası Nizamiden Yunus Emreye-Atatürkden Haydar Aliyeve Uzanan Sevgi ve Barış Yolu Sempozyumu” (2012) və onlarla digər simpoziumları qeyd etmək olar.

G.Abdullazadənin Türkiyədə iştirak etdiyi ilk konfranslardan biri 1997-ci il 4-7 noyabr tarixlərində baş tutan “IV Uluslararası Türk Kültürü Kongresi”dir. O, burada “Üzeyir Hacıbəyovun milli musiqi haqqında estetik düşüncələri” adlı məruzəsi ilə çıxış etmişdir. Tədbir Ankara şəhərində yerləşən Atatürk Kültür Mərkəzində baş tutub. Məruzə böyük rəğbətlə qarşılanmış və iştirakçı alimlərin marağına səbəb olmuşdur. Çıxış etdiyi növbəti konfrans Ərzurum şəhərində təşkil olunan “Fəlsəfə konqresi”dir. O, burada böyük maraq doğuran “İnsan fəlsəfəsi” adlı məruzəsini təqdim edib.

Göründüyü kimi, Gülnaz xanım həmin konfranslarda Azərbaycan musiqisinə, Ü.Hacıbəyli yaradıcılığına, milli musiqimizin fəlsəfi kontekstdə araşdırılmasına dair elmi əsərlər ortaya qoyub. Görkəmli tədqiqatçının yaradıcılığında belə yeniliklərin sayı kifayət qədərdir. Alimin burada Azərbaycan musiqisinin müxtəlif cəhətlərini özündə əks etdirən məruzələrlə çıxışı ilk növbədə türk musiqi ictimaiyyətinin milli musiqimizə diqqət yönəltməsi ilə nəticələnib. Bu məqam Azərbaycan musiqisinin təbliğ olunmasında mühüm əhəmiyyətə malikdir.

Mənfur düşmənin xalqımıza qarşı törətdiyi soyqırım, etnik təmizləmə əməliyyatı, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması təkcə siyasi arenada deyil, elm sahəsində də həyata keçirilir. Belə ki, Gülnaz xanım çıxışları zamanı Qarabağ həqiqətlərini dünyaya çatdırır. Hər bir tribunadan belə müqəddəs missiya üçün bəhrələnməyə çalışır. Bu, eyni zamanda ictimai xadim kimi onun Vətənə bağlılığının göstəricisidir. Həmin konfranslardan biri də 2002-ci ildə İstanbul şəhərində baş tutmuşdur. Dünyanın bir sıra ölkələrindən gələn alim və tədqiqatçıların iştirak etdiyi simpoziumda "Savaş çoçukları: Öksüzler ve Yetimler" adlı məruzəsi bu yolda atılan ən vacib addımlardan biridir. O, Simpozuma özü ilə Xocalı faciəsinin dəhşətlərini əks etdirən film də aparmışdır [11,s.88].

2004-cü ilin 22-24 sentyabrında Qars şəhərində keçirilən "Qafqaz Xalqlarının Qurultayı"nda Türkiyə-Ermənistan sərhədlərinin açılmasına dair bir elm xadimi kimi, öz fikrini bildirməyə müvəffəq olub. Belə ki, qurultaya azərbaycanlı elm xadimləri də dəvət edilmişdilər. Lakin ermənilərin səyi nəticəsində, başqa tədbirdə iştirak üçün Ankaraya göndərilirlər. Qeyd etmək istərdim ki, görkəmli alim həmin qurultayın digər bölümündə "Ermənilərin Azərbaycan musiqisinə olan təcavüzü" adlı məruzəsi ilə çıxış etməli idi. Bu zaman Azərbaycanın Qarsdakı baş konsulu Həsən Zeynalov onunla görüşərək qurultayın açılış mərasimində iştirak etməsini istəyir. G.Abdullazadə ilə söhbətimizdə bu məqamı belə xatırlayır: "Türkiyədə keçirilən "Qafqaz Xalqlarının Qurultayı"nın açılış toplantısı zamanı İrəvan Universitetinin türkologiya kafedrasının müdiri türk dilində çıxış edərək Türkiyə və Ermənistan arasında sərhədlərin açılmasını, 2 milyonluq ermənin Türkiyəni ziyarət etməsinə şərait yaradılmasını istədi və bunun Türkiyə iqtisadiyyatına müsbət təsir göstərəcəyini vurğuladı. Bu zaman moderator auditoriyadan "Kiminsə sualı varmı?" deyə soruşdu. Mən isə erməni iştirakçıya müraciətlə, iki milyonluq erməni xalqının Türkiyəni ziyarət etmə səbəbini bilmək istədim. O, "Bu torpaqların əzəldən bizim olduğu hamıya bəllidir" deyə bildirdi. Ermənistan təmsilçisinin cavabı zalda haqlı narazılığa, qalmaqala səbəb oldu və fasilə elan edilməsi ilə nəticələndi. Fasilə zamanı ermənilər mənə yaxınlaşaraq "Biz sizi çox yaxşı başa düşürük, siz məğlub ölkəsiniz" dedi. Onların ironiyası mənə çox pis təsir etdi. Lakin bu gün Azərbaycanın müzəffər ordusunun qalibiyyətindən sonra üzümü onlara tutub deyirəm: "Məğlub ölkə sizsiniz!" Həmçinin Ermənistan Müdafiə Nazirliyinin sabiq əməkdaşı A.Ovannisyanın "Müharibə başlasa, tanklarımız Bakıya gələcək" sərsəmləməsinə cavab olaraq, həmin tankların paytaxtımıza bir qənimət kimi gətirildiyini böyük sevinc və məmnuniyyət hissi ilə vurğulamaq istərdim... Qurultaydakı bu sualım dinləyiciləri hiddətləndirdi və Qarsla Ermənistan sərhədlərinin açılması məsələsi gündəlikdən çıxarıldı. Hörmətli diplomatımız Həsən Zeynalov da nəticədən çox razı qalaraq bu barədə ölkə Prezidentinə məruzə etmişdir".

Qurultayın növbəti günündə İrəvan Konservatoriyasının Elmi işlər üzrə prorektoru çıxışı zamanı "Sarı gəlin"nin erməni xalq mahnısı olmasını, Komitas tərəfindən nota köçürüldüyünü və qurultayın bədii hissəsində onların ifasında türklərin bu mahnıya rəqs etdiklərini vurğuladı. Gülnaz xanım isə öz cavabında "Komitas haradan sizin bəstəkar oldu ki, onu kilsə xidmətçisi işindən ayıraraq Ermənistandan qovdunuz. O, ömür və yaradıcılığını Türkiyədə, türk dilində davam etdirmişdir". Eyni zamanda G.Abdullazadə musiqinin bir elm olduğunu, "sarı" və "gəlin" sözlərinə erməni dilində təsadüf edilməməsini, həmçinin həmin sözlərin türkmənşəliliyini elmi əsaslarla sübuta yetirmişdir: "Gəlin oldu axçıq, bəs sarı?". Onun bu çıxışı türk mətbuatında geniş əks-sədaya səbəb olmuş və Qarsın "Önder" qəzetinin 27 sentyabr sayında "Bəs sarı?" başlığı altında dərc edilmişdir. Göründüyü kimi, Gülnaz xanımın yaradıcılığı təkcə elm sahəsi ilə məhdudlaşmır. İctimai xadim səviyyəsində elmi əsaslarla, faktlarla çıxışları da mühüm əhəmiyyətə malikdir. Həm də bir vətəndaş kimi öz borcunu yerinə yetirir; gələcəkdə musiqi mədəniyyətimizin qorunub saxlanılması məqsədilə vətənpərvər alimlərin hazırlanması onun üçün çox önəmli məsələlərdəndir.

Görkəmli alim gənc tədqiqatçıların fəaliyyətində də mühüm rol oynayır - rəhbərliyi altında 80-ə yaxın alim fəlsəfə doktoru və elmlər doktoru adına layiq görülmüşdür. Onların arasında türkiyəli tədqiqatçılar da kifayət qədərdir. Burada Q.Pekşen, C.Daimi, E.Şenocak, T.Dağlı, M.Kaya, K.Çayır, Ü.Funda, N.İçelli, D.Ağca, O.Özəl və başqalarının adlarını sadalamaq mümkündür. Qeyd edim ki, bu, iki respublika arasında təhsil səviyyəsində yüksək münasibətlərin yaradılmasından xəbər verir. Eyni zamanda, yaradıcılığına türkiyəli tədqiqatçıların rəğbətini, elmi rəhbərə etimadlarını göstərir. Hazırda həmin tədqiqatçılar öz fəaliyyətlərini Türkiyə Respublikasında uğurla davam etdirirlər. Bunu həm də G.Abdulllazadənin Türkiyə elminə bir töhfəsi kimi də dəyərləndirmək olar.

Həmin elmi işlərin mövzu dairəsi geniş və əhatəlidir. Tədqiqat işlərində diqqəti cəlb edən əsas məqam Azərbaycan və Türkiyə musiqisinin xüsusiyyətlərinin qarşılaşdırılması, müəyyən paralel oxşarlığın aparılmasıdır. Nümunə olaraq Q.Pekşenin "Ələvi mərasimlərində musiqinin səciyyəvi xüsusiyyətləri (Türkiyə və Azərbaycan dini musiqisinin müqayisəli kontekstində), C.Daiminin "Novruz bayramı mərasiminin Azərbaycan və Türkiyədə mövcudluğu və onun melopoetik əsaslarının özünəməxsusluğu", T.Adnanın "Türkiyə və Azərbaycanda laylay və ninnilərin musiqi-poetik xüsusiyyətləri", K.Meyserin "Azərbaycan və türk xalq mahnılarının müqayisəli təhlili" və onlarla digər elmi işləri vurğulamaq mümkündür. Sözügedən elmi tədqiqat əsərlərinin digər bir əhəmiyyətini isə türk xalqlarının musiqisinin öyrənilməsi təşkil edir.

Q.Pekşenin müəllifi olduğu dissertasiya işində Azərbaycan və Türkiyə dini musiqisinin səciyyəvi xüsusiyyətlərinə nəzər yetirilir və onların müqayisəli təhlili aparılır. Vurğulamaq lazımdır ki, ələvi mərasimlərinin tədqiqi və əldə olunan nəticələr hər iki ölkənin musiqi elmində böyük maraq doğurur.

Digər diqqəti cəlb edən tədqiqat işlərindən biri də C.Daiminin müəllifi olduğu dissertasiyadır. Aparılan araşdırma mövzu dairəsinə görə geniş və əhatəlidir. Belə ki, tədqiqat işi Türkiyənin Anadolu, Trakya bölgələri, eləcə də Azərbaycanın bütün bölgələrinin Novruz ənənələri üzərində qurulmuşdur. Həmçinin dissertasiyada mərasimi müşayiət edən mahnı, rəqs havaları, teatrallaşdırılmış tamaşalar, nəğmələr kompleks şəkildə öyrənilir.

Laylay və ninnilər türk xalqlarının folklorunda mühüm əhəmiyyətə malikdir. Onlar öz dəyərini müasir dövrdə də itirməmişlər. Belə ki, istənilən folklor nümunəsi xalqın genetik yaddaşı rolunu oynayır və burada dünyagörüşü, baxışlar öz əksini tapır. Azərbaycan və türk xalqları qohum olsalar da mədəniyyətlərində fərqli məqamlar mövcuddur. Folklor yaradıcılığının ən dəyərli hissəsini təşkil edən laylay da bu baxımdan istisna deyildir. T.Adnan isə hər iki xalqın folkloruna müraciətlə, tarixi dəyəri müəyyənləşdirməyə çalışır.

Onun rəhbəri olduğu digər tədqiqat işlərində türk musiqisinin tarixi, ayrı-ayrı bəstəkar və ifaçıların yaradıcılığı, türk vokal musiqisi, eləcə də təsəvvüf fəlsəfəsi öyrənilmişdir. Osman Özəlin müəllifi olduğu dissertasiya isə Türkiyə vokal sənətinin parlaq nümayəndəsi Leyla Gəncərin həyat və yaradıcılığına həsr olunub. Burada görkəmli musiqiçinin vokal ifaçılıq xüsusiyyətlərinə, onun Türkiyə və dünya musiqi mədəniyyətində oynadığı rolun əhəmiyyətinə aydınlıq gətirilmişdir. Nəzərinizə çatdırmaq istərdim ki, bu, Türkiyə elmində L.Gəncər haqqında ilk dissertasiyadır.

D.Ağcanın dissertasiyasında isə əsrlərlə Avropa və Asiyada hökmranlıq edən Osmanlı imperiyasının musiqisinin digər ölkələrin bəstəkarlarının yaradıcılığında istifadə olunması məsələlərinə aydınlıq gətirilib. "Alla turca" anlayışının yaranması, həmin dövrdə bəstələnən operalarda türkçülük ünsürləri və baş qəhrəmanların obrazları araşdırılır. Mehtər musiqisində istifadə olunan alətlərin Qərbi-Avropa simfonik orkestrinə daxil edilməsi də dissertasiya işinin mövzu dairəsindədir.

Qeyd edilən tədqiqat işlərinin hər biri böyük əhəmiyyətə və elmi baxımdan misilsiz dəyərə malikdir. Bu həm də Gülnaz xanımın geniş dünyagörüşündən, yaradıcılığının çoxşaxəliliyindən xəbər verir. Eyni zamanda həmin tədqiqat işləri türk musiqi elminin araşdırılmasına bir töhfədir.

Beləliklə, Gülnaz xanım Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafında mühüm xidmətlər göstərən, onu yeni səviyyəyə yüksəldən böyük alimdir. O, hər iki ölkə arasında musiqi elmi sahəsində əməkdaşlığın yeni bir mərhələyə qaldırılmasına böyük töhfələr vermişdir.

Qeyd edim ki, məqalədə musiqi xadiminin yaradıcılığının kiçik bir hissəsi işıqlandırılıb. Araşdırmada sadalanan bütün amillər Azərbaycan və Türkiyə Respublikalarının musiqi elminə nə qədər böyük xidmətlər göstərildiyinin əyani sübutudur.

Gülnaz Abdullazadə öz yaradıcılıq fəaliyyəti ilə müasir dövrdə Azərbaycan və Türkiyə arasında musiqi elmi sahəsində əməkdaşlığın bir simvoluna çevrilmişdir. ❖

**Ədəbiyyat:**

1. Abdullazadə, G. Avropa not sistemli professional musiqinin Şərq şifahi ənənəli professional musiqisi ilə müqayisəsi və onların inteqrasiya yolları // Azərbaycan milli musiqisinin tədqiqi problemləri. Elmi məqalələr toplusu V buraxılış. - Bakı: 2004, - s.4-14.
2. Abdullazadə, G. Qədim dövr və orta əsrlərin musiqi mədəniyyətinin tarixi-fəlsəfi təhlili / G.Abdullazadə. – Bakı: "Qartal",- 1996. - 291 s.
3. Abdullazadə, G. Qədim və orta əsrlərin musiqi mədəniyyəti / G.Abdullazadə. – Bakı: "Şərq-Qərb",- 2009. - 272 s.
4. Abdullazadə, G.Üzeyir bəydən bizə miras-bizdən Üzeyir bəyə miras // - Bakı: "Musiqi dünyası", - 2005. 3-4/25,- s.18-20.
5. Bünyadzadə, K. Muğam fəlsəfəsi / K.Bünyadzadə.- Bakı: "Elmin inkişafı fondu", - 2018, - 159 s.
6. Hacıyeva, M. Azərbaycan muğam fəlsəfəsi / M.Hacıyeva.- Bakı: "Şərq-Qərb", - 2016. - 199 s.
7. Rəhimbəyli, N. Gülnaz Abdullazadə / N.Rəhimbəyli.-Bakı: "Şərq-Qərb", - 2014. - 32 s.
8. Абдуллазаде, Г. Азербайджанские мугамы. Философская сущность / Г.Абдуллазаде. – Баку: "Язычи", - 1983, - 39 с.
9. Абдуллазаде, Г. Наука, человек и общество / Г.Абдуллазаде. – Баку: "Язычи", - 1991, - 244 с.
10. Абдуллазаде, Г. Философская сущность музыкального искусства / Г.Абдуллазаде. – Баку: "Ишыг", - 1985.- 284 с.
11. Исмаил-заде, Н. На вершине науки. Гюльназ Абдуллазаде / Н.Исмаил-заде.- Баку: "Elm və təhsil", - 2017. - 272 с.
12. https://sesqazeti.az/news/kivdf/339342.html

**Резюме**

Ильхам Назаров

РОЛЬ И ЗНАЧЕНИЕ ГЮЛЬНАЗ АБДУЛЛАЗАДЕ В ОБЛАСТИ МУЗЫКАЛЬНОЙ НАУКИ АЗЕРБАЙДЖАНА И ТУРЦИИ

Статья посвящена исследованиям заслуг проректора по Науке Бакинской Музыкальной Академии, доктора наук, Заслуженного деятеля искусств, профессора, видного ученого Гюльназ Абдуллазаде в развитии связей в области музыки между Азербайджаном и Турецкой Республикой. Здесь освещены виды деятельности музыканта, изучена ее роль в формировании турецких молодых исследователей и влияние на их творчество. В то же время затронуты вопросы формирования нового этапа связей в области музыки между двумя странами на международных конференциях, проведенных по инициативе и при участии Г.Абдуллазаде.

**Ключевые слова:** Гюльназ Абдуллазаде, Азербайджан, Турция, культурные связи, конференция, музыкальная наука, творчество.

**Summary**

Ilham Nazarov

THE ROLE AND SIGNIFICANCE OF GULNAZ ABDULLAZADE IN THE FIELD OF MUSIC SCIENCE IN AZERBAIJAN AND TURKEY

The article deals with the research of the merits of the Vice-rector for Scientific works of the Baku Music Academy, doctor of Sciences, Honored artist, professor, great scientist Gulnaz Abdullazade in the development of relations in the field of music between Azerbaijan and the Republic of Turkey. It highlights the areas of the musician's activities, examines her role in the formation of Turkish young researchers and her influence on their creative work. At the same time, the issues of forming a new stage of relations in the field of music between the two countries at international conferences held on the initiative and with the participation of G. Abdullazade are considered.

**Key words:** Gulnaz Abdullazade, Azerbaijan, Turkey, cultural relations, conference, musical science, creative work.